AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

İNFORMASİYA
ƏMƏK İSTİSMARI
QORXU
AZADLIQ
İNAMSIZLIQ
İŞGƏNCƏ
CİNAYƏT
UŞAQ ALVERİ
İSTİSMAR
NARAHATLIQ
QANUN
CİNSİ İSTİSMAR
UŞAQ
HÜQUQ
İNTERNET
MƏHRUMETMƏ
İNSAN ALVERİ
YETKİNLİK YAŞINA ÇATMAYAN

# İNSAN ALVERİ NƏDİR ?



İnsanların aldadılaraq, zor tədbiq edilərək, eləcə də onlara hədə-qorxu gəlməklə məcburi əməyə və digər xidmət sahələrinə cəlb edilməsi, qeyri-insani şəraitdə yaşamağa təhrik edilməsi, gizlədilməsi, qanunsuz olaraq ölkə xaricinə çıxarılmasıdır.

# İNSAN ALVERİNİN POTENSİAL QURBANLARI KİMLƏR OLA BİLƏR?



Kimsəsiz və baxımsız şəraitdə yaşayan şəxslər



Dilənçiliklə məşğul olanlar



Narkotik vasitə, eləcə də psixotrop maddələrdən asılılığı olanlar



Küçə həyatına məruz qalan şəxslər

**Təəssüflər olsun ki, uşaqlar da müxtəlif səbəblərdən “İNSAN ALVERİNİN” qurbanına çevrilə bilər.**



Uşaqlar daha çox əmək istismarı və
cinsi istismar yolu ilə insan alverinin qurbanı olurlar.

**Çətin həyat şəraitində olan uşaqların sosial vəziyyətindən istifadə edərək, onların cəza təhdidi altında az və ya heç bir ödəniş edilmədən qanunsuz olaraq işlədilməsi UŞAQ ƏMƏYİNİN İSTİSMARIDIR.**





**Bu uşaqlar daha çox inşaat, kənd təsərrüfatı, pərakəndə satış yerlərində məcburi əməyə cəlb edilə bilər.**

Bəzi şəxslər uşaqları cinsi xarakterli hərəkətlər etməyə məcbur edərək bundan mənfəət əldə etməyə çalışırlar.





Yetkinlik yaşına çatmayanların cinsi toxunulmazlığı əleyhinə törədilən hər hansı bir hərəkət uşaqların **CİNSİ İSTİSMARIDIR!**

**Son dövrlər rəqəmsal texnologiyalardan geniş istifadə uşaqların internet vasitəsilə təqib və zorakılığa məruz qalmaq riskini artırır.**



**Uşaqların pornoqrafik film və şəkillərə baxmağa məcbur edilməsi, onları narahat edəcək fotoların internet vasitəsilə müxtəlif veb saytlara yerləşdirilməsi, kamera qarşısında cinsi davranışa sövq edilməsi internet vasitəsilə uşaq cinsi istismarının bir növüdür.**



# BU ZAMAN UŞAQLARDA HANSI HALLAR MÜŞAHİDƏ EDİLİR:

**Özünəqapanma:**



**Narahatlıq:**



**Qorxu:**



**Utancaqlıq:**



**Özünü günahlandırma:**



**Aqressiv davranışlar:**



# UŞAQLAR NƏYİ BİLMƏLİDİR?

**Özünə aid informasiyaları tanımadığı şəxslərlə bölüşməməyi;**

**İnternet, eləcə də mobil telefonları müəyyən vaxt çərçivəsində istifadə etməyi;**

**İstəmədiyi hərəkətlərə qarşı "YOX" deməyi;**

**Ünsiyyət zamanı müəyyən sərhədlər qoymağı;**

**Onları narahat edən hər şeyi valideynlərinə danışmağı;**



# UŞAQ İSTİSMARI BİRBAŞA UŞAQ HÜQUQLARININ POZULMASIDIR VƏ CİNAYƏTDİR !





Ailə, Qadın və Uşaq Problemləri üzrə
Dövlət Komitəsi

012-498-00-92
Uşaq Qaynar Xətti
116-111